SƏRİNGÜL SADƏ

Bayatılar

“Elm və təhsil”
Bakı - 2023

Səringül Sadə. Bayatılar.
Bakı, “Elm və təhsil”, 2023, 92 səh.

Dünya qəmdi-qəhərdi,
Zəy-zəqqumdu, zəhərdi.
Verdiklərin savabdı,
Yığdıqların hədərdi.

Utandırır bir əri,
Axmaq, dəli-sərsəri.
Nadan çəkər geriyə,
Başa çəkər sər səri.

Quş uçar dənə doğru,
Deyirəm sənə, doğru.
Sən də dönüb bir çaya
Axıb gəl mənə doğru.

Şahmar ilana dönüb,
Oxa-kamana dönüb.
Dönən yarın üzümü,
Yoxsa, zamana dönüb?

Ürək min dərdə dözdü,
Hər bir müşkülü çözdü,
Canımdan can verdiyim
Qəlbimi tamam üzdü.

Tanrının min sirri var,
İnsanın hər cürü var.
Yerin üstündə ölü,
Yer altında diri var.

Pis sözü dildə qala,
Səhrada, çöldə qala.
Yamanlıq ölə-itə,
Yaxşılıq eldə qala.

Gəl sinəmdə köz qala,
Qoyma qəlbdə söz qala.
Namərd ocağı yanmaz,
Yüz ətəklə yüz qala.

Yarım yalan söylədi,
Yandı canım, göynədi.
Baxmadı qönçə gülə,
Solmuş gülü iylədi.

Dağdı Tanrı müjdəsi,
Dağdı elin həvəsi.
Dağdı bu Səringülün
Vuran qəlbi, nəfəsi!

Kitabımız – Qurandı,
Tanrımızdan nişandı.
Türkün şanlı dövləti
Bu gün-sabah Turandı.

Ölkəmiz abad olsun,
Dostlar baxıb şad olsun.
Çiçəklənsin Vətənim,
Düşmən yurdu bad olsun!

Aranda bardan oldum,
Yaylaqda qardan oldum.
Yarı-yara yetirdim,
Mən özüm yardan oldum!

Dünya qəmli-qəhərli,
Gah düşməz, gah düşərli.
Qalan deyil kimsəyə,
Olma belə zəhərli.

Qürbət ellər yamandı,
Onu öymə, amandı.
Qürbətdə burun suyu
Vallah, gözə damandı.

Əvəzi yox Quranın,
Bəzəyidir cahanın.
Yerə dəysin tək dizi
Namazda müsəlmanın.

Adam var, hey tər tökər,
Araya güllər tökər,
Adam var, dost başına
Ələyib küllər tökər.

Aşiq sirri söylədi,
Düşdüm geri söylədi.
Fələk pislik etdisə,
Sonra yeri söylədi.

Çoxu lap ağ eylədi,
Sadəyə lağ eylədi,
Qohumun bir neçəsi
Dərdimi dağ eylədi.

Səni etsə bir dəli,
Müti, gözükölgəli,
Dönər şirə-pələngə,
Hər vaxt sənə xox gəli!

Əzizinəm, hasarı,
Keçmə səddi-hasarı.
Mən nə lütü istəməm,
Nə də pullu yasarı!

Daşdan çıxar,
Su axıb daşdan çıxar,
Uyma çox gülüzlüyə,
O ağlın başdan çıxar.

Aşiq, ya da aşıqsan,
Nə olsun ki, sən şıqsan.
İşlərinə baxanda
Yuyulmamış qaşıqsan!

Mənim bağrı daş könlüm,
Deyən düşdük çaş, könlüm.
İndi doğma Vətənə
Çəkəmmirik baş, könlüm!

Qəribədi-qəribə,
Həyan olmur qəribə.
Söylə, kimdi yetirən
Qəribi bir təbibə?

Əzizinəm, a dağlar,
Kimsəsiz qaldı bağlar,
Düşdüm Vətəndən uzaq,
Mənim qəlbim qan ağlar!

Çox sirlər saxlamışam,
Gül yığıb qoxlamışam.
Sən indi sınadığın
Mən çoxdan yoxlamışam!

Xeyrə dönər,
Bu sirə-sehrə dönər.
Qala-qala şər iş də
Axırda xeyrə dönər!

Poladdan sərt divarı,
Qayadan dörd divarı,
Üstə ildırım düşə,
Dağıla dərd divarı!

Bəxt yazan qara yazı,
Ömrümü qara yazı.
Canımı od yandırdı,
Dondurdu qar ayazı!

Ərənlər heç öyünməz,
Darılıb, nə deyinməz.
İtirəndə qəmlənib,
Tapanda da sevinməz.

Quran kimi, əlbəttə,
Kitab yoxdu hikmətdə.
Peyğəmbərim yatıbdı,
Nur içində cənnətdə!

Çox dayaz göl quruyar,
Heç kimə də verməz kar.
Əgər insan dayazsa,
Bil ki, ondan olmaz yar!

Dolu döyər, gül ağlar,
Dodaq titrər, dil ağlar.
Namərdi tək anası,
Mərdi bütün el ağlar.

Dərdim əziz-doğmadı,
Bezib məndən doymadı,
Bir yaşayıb, bir öldük,
Qəbrə də tək qoymadı!

Dünya fani, boşdu-boş,
Heç gəlməsin sənə xoş.
Sonun torpaq olmaqdı,
Nə kükrəyib, nə də coş!

Ömür sarı yarpaqdı,
Ruh bədəndə qonaqdı,
“Dünya mənim” deyənlər
əzəl-axır torpaqdı!

Eşit məni, lal bulud!
Gəl qeydimə qal, bulud.
Bəndə kölgəsin çəkib,
Sən kölgəni sal, bulud!

Yaxşı yamanı sevməz,
Doğru yalanı sevməz,
Halal olan bir insan
Müftə, talanı sevməz.

Boyu boyumdan olmaz,
Soyu soyumdan olmaz,
Yad elin, yad diyarın
Toyu toyumdan olmaz.

Daşdan böyük daş gördüm,
Başdan böyük baş gördüm.
Gen günümdə çoxunu,
Dar gündə qardaş gördüm.

Hər güldən göyçək nənə,
Dediyi gerçək, nənə,
Versin xeyir-duanı,
Gəlsin ağbirçək nənə!

Ey yun daraqlı nənə,
Nurlu-çıraqlı nənə,
Süfrəsi duz-çörəkli,
Evi qonaqlı nənə!

Gözəl ürəkli nənə,
Sərnic, səhəngli nənə,
Qaymaq, qatıq, şor paylı,
Sağmal inəkli nənə!

Cəhrə-daraqlı nənə,
Düyçə-yumaqlı nənə,
Hər təamın dadlıdı,
Sönməz ocaqlı nənə!

Dili laylalı nənə,
Sözdən qalalı nənə,
Hər nəvənin ağrısın
Yüz dəfə alı nənə!

Doğru-yalan-gerçək var,
Özü-sözü göyçək var,
Dava kəsib-yatıran
Ağsaqqal, ağbirçək var.

Sözü sözə vuran var,
Sözə qarşı duran var,
Gözlə, evləri yıxan,
Gözdən qala quran var.

Çox sözün hikməti var,
Abırı-isməti var.
İnsan kimi sözün də
Qədəri-qisməti var!

Haqq veribsə, yaz sözün,
İşığıdı saz, sözün.
Bəzi eldən oxuyur,
Şair deyir öz sözün.

Var yalanı-doğrusu,
Sözün də söz oğrusu.
Axirətdə olur bil,
Sözün sözlə sorğusu!

Bəd sözün közü qalar,
Ürəkdə izi qalar,
Dünyadan köçər insan,
Söhbəti-sözü qalar.

Borc almışıq biz ömrü,
Nə incit, nə üz ömrü.
Min insanda yoxdu, bil,
Bir hikmətli söz ömrü.

Yurdu talana baxın,
Özü nalana baxın.
Qürbətdə Vətən deyib,
Gültək solana baxın!

Sözün söz gülşəni var,
Yanmışı-kövşəni var.
Az deyil çiy olanı,
Yaxşı da bişəni var.

Hər sözün ad-sanı var,
Nökər, sultan, xanı var.
Yara vuran, qan tökən,
Sözün də loğmanı var!

Çatılsa Vətən qaşı,
Tökərəm qanlı yaşı.
Ölüb-itən biz olaq,
Sağ olsun Vətən başı!

Əsgərim yetdi dada,
Düşməni verdi bada.
Bizim Şanlı Ordumuz
Sözün dedi Şuşada!

Gördüyüm tuşa döndü,
Göylərdə quşa döndü.
Gül qoxulu yaz ömrüm
Şaxtalı qışa döndü.

Baxıb sevinir yağı,
Virandı könül bağı.
İnsafsız-qanlı fələk
Çəkib sinəmə dağı.

Şamlar kimi əridim,
Dərdə sarı yeridim.
İndi nalan olmuşam
Hamılardan sər idim!

Mərhəmət yox özündə,
Qan-qada var sözündə
Qəlbi korsa kimsənin
Nur da olmaz gözündə.

Fələk mənə qənimdi,
Dərd gətirən gəmimdi,
Göz yaşımla cücərən
Mənim dərd-qəm zəmimdi.

Su axdı, durulmadı,
Zilləndi – sorulmadı.
Vay çadırlı şəhidə,
Toy çadrı qurulmadı.

Yaş yudu – rəngin soldu,
Axdı dəryalar doldu,
Qanlı fələk əlindən
Bağrım başı qan oldu.

Şimşəkdi – qəfil çaxar,
Atəşi polad yaxar.
Fələyin qəm tüstüsü
Hər bir bacadan çıxar.

İnadlıq dərdin başı,
İnadlıq tökər yaşı.
İnadlıq eyləyənin
Qarın doyurmaz aşı!

Dünyanın var min canı,
Ağladandı insanı.
Kimsəni yola salmaz,
Çəkdirməmiş amanı!

Sevəndi düzü dünya,
Deyir son sözü dünya.
Kişi var – bir qəpiklik,
Kişi var – özü dünya!

Əgər olarsa birlik,
Olar o yerdə dirlik.
Vətənin dar günündə,
İgid göstərər ərlik!

Od qalandı belimdə,
Axdım qəmin selində.
Apardı sellər məni,
Lilləndim dərd gölündə.

Ceyranlar düzə gələr,
Ovçular izə gələr.
Tanrım, balamı qoru,
Nəzərə-gözə gələr!

Çat hamının hayına,
Bənzə ümid çayına.
Tanrım hər gözəlliyi
Yazsın ömür payına!!

Bacar, nəfsi qul eylə,
Yaxşılığı yol eylə.
Axirəti sən düşün,
Səxavəti bol eylə!

Dərdə məni,
Dərd əyər dərd əməni.
Arazda qərq olmuşam,
Gəzirlər Kürdə məni.

Seçirəm tükdən-tükü,
Sən bildiyin bir-iki.
Dərd dağını çəkirəm,
Çəkəmmirəm söz yükü.

Quzu tək-tək doğular,
Sürü olub yığılar.
İt balalar beş-altı,
Hamsı qaçar-dağılar!

Seçmir əyrini-düzü,
Haramda qalıb gözü.
Hamıya ağıl verir,
Evində keçmir sözü.

Şəhadət – Şəhid tacı,
Hamıya verir acı.
Şəhid dərdi ağladıb,
Yar-yoldaş, ana-bacı.

Can yanır oda gördüm,
Çatan yox dada gördüm.
Qohumlardan əl üzüb,
Yalvaran yada gördüm!

Saf su bulaqdan olar,
Yalançı Haqdan olar,
Ana söznə baxmayan
Bir gün qulaqdan olar.

Aşıq, zamana bax-bax,
Yaxşı-yamana bax-bax,
Aşiqi nişan alan
Qaşı kamana bax-bax.

Namərdin çox davası,
Qaysaq tutmaz yarası.
Əlin tutan olmadı,
Hey tutuldu yaxası!

Çoxundan qada gördüm,
İnam yox, yada gördüm.
Dünyaya bel bağladım,
Namərddi o da, gördüm!

Sinəsində yar dağı,
Ağlayıb deyir ağı,
Aşiqin ah-fəğanı
Yandırır daşı-dağı!

Yanar şamı söndürər,
Lalı zorla dindirər.
Dərd əli çatsa göyə,
Göyü yerə endirər!

Ağrısından yer titrər,
Hicran zillətdən betər.
Atəşi can yandırar,
Sönməz məzara qədər!

Sevindirib Təbrizi,
Bakıya saldın izi.
Məhəmməd Pur İsmayıl,
Allah saxlasın sizi!

Olma gözü, könlü dar,
Hər şərdə bir xeyir var.
Xəstə yatan tələsər,
Vədəsində dəyər nar!

Gözlərimin yaşı çox,
Könlümün təlaşı çox.
Sadə, başına dəyən,
Bu fələyin daşı çox!

Cahillərdən öc alar,
Zəmanədən bac alar.
Qüdrətli söz ləşkəri
Şah başından tac alar!

Nə vaxt sevgi kəm olar,
Yar çəkdiyi qəm olar.
Ağır yatan xəstəyə
Yar sözü məlhəm olar.

Pozmadı heç nizamı,
Qamçıladı zamanı.
Görmədi hörmət-izzət,
Söz mülkünün xaqanı!

Hey deyən “Vətən” – mənəm,
Bülbültək ötən mənəm.
Hər baharda gül olub,
Yenidən bitən mənəm.

Haqqı Yaradan seçər,
Ağı-qaradan seçər.
Namərd olan insanı
Tezcə sıradan seçər!

Eşq dünyanın ürəyi,
Eşq dünyanın dirəyi,
Onsuz dünya məhv olar,
Eşq dünyanın gərəyi.

Bizim dağın çayı var,
Yazda haray-hayı var.
Əzəmət, qürur kimi
Tanrımızdan payı var!

Hər axan su içilməz,
Hər kişi pir seçilməz.
Günahdan keçməyənin
Günahından keçilməz!

Bəxt – iqbalı kəm gözəl,
Qara gözü nəm, gözəl.
Dərdinə şərik ollam,
Yarana məlhəm, gözəl!

Adam var, gözdən qızar,
Dəmirsə, közdən qızar.
Söz anlamaz, dərd bilməz,
Bir quru sözdən qızar!

Eli Azərbaycandı!
Naxışı kəhkəşandı.
Kəlağayı əzəldən
Dilimizdə dastandı!

Kəlağayı butalı,
Tanrımızdan ətalı.
Gözəllərin üzünə
Kəlağayı nur salı!

Ayağımda bağı var,
Sinəm üstə dağı var.
Dərdə əsir düşmüşəm,
Başım üstə yağı var!

Bu dünya qəmsiz olmaz,
Saz zilsiz, bəmsiz olmaz.
Dərd-qəmin anasıyam,
Balam da mənsiz olmaz!

Şimşək olub çaxaram,
Yandıraram-yaxaram.
Vətən üçün ölümün
Gözünə dik baxaram.

Sinəmi köz yandırar,
Dilimi söz yandırar.
Nahaqqı haqdan seçər,
Əyrini düz yandırar!

Vətən namus, Vətən ar,
Vətən bizə iftixar!
Can olsun ona fəda,
Sadə yoxsa, Vətən var!

Adı bizə ünvandı,
Özü ürəkdi-candı.
Əli zəfər bayraqlı,
İlham – Azərbaycandı!

Gəzmə şərab, nə badə,
Saflığa ola amadə.
Mey haramdı, bunu bil,
İçmə oğul, nəbadə!

Ömür qəmdi, kədərdi,
Kədər çəkmək hədərdi.
Pis gün dumana bənzər,
Bir an gəlib-gedərdi.

Baramanın barıdı,
Safdan-safdı, arıdı.
Bizim bu kəlağayı
Qız-gəlinin yarıdı.

Mənim əlvan ipəyim,
Qönçə gülüm, çiçəyim.
Dünyada adı bəlli,
Kəlağayı örpəyim!

Göydə Günəş, Aydı o,
Ulduzlara taydı o.
Sadəyə xoş xatirə,
Tanrımızdan paydı o.

Kəlağayı baş tacı,
O hamının amacı.
Alıb yığdı, doymadı,
Sadə də bir möhtacı.

Dinim-imanım Vətən,
Andım-amanım Vətən.
Qürbətdəyəm, kimsəm yox,
Sənsən hayanım, Vətən!

Vətən – nuri-didəmdi,
Vətən bağı – İrəmdi.
Vətənsiz keçən günüm
Mənə dərddi-sitəmdi.

Bayraq Vətənin canı,
Odur şöhrəti-şanı.
Biz qoruyaq bayrağı,
Axıtsaq da al-qanı.

Qəribin "ağır daşı",
Qürbətdə axar yaşı.
Olsa da səhra kimi
Vətən – ürəyin başı!

Şeir Haqqın sədası,
Şerin mindi qaydası.
Hər sözü deyən kəsdən
Şair olmaz, qadası!

Dərd cana yetər oldu,
Gül ömrüm hədər oldu.
Öz doğmam, öz yaxınım
Düşməndən betər oldu!

Soruşun, gülən varmı,
Göz yaşı silən varmı?
Dərdsiz bəndə gəzirəm,
Yerini bilən varmı?

Eşqin dəlisi mənəm,
Məna vəlisi mənəm.
Ey yar, könül gözünün
İlham pərisi mənəm!

Az doydur cana məni,
Gəl salma qana, məni.
Gündə girib min dona,
Çevirmə yana məni!

Sonadək gülən varmı,
Hər sirri bilən varmı?
Dərdi yenib dünyada
Heç qalib gələn varmı?

Qismət yoxsa, gül açmaz,
Yarpaq düşüb, quş uçmaz.
Bilin, Ulu Rəbbimin
Gözündən heç nə qaçmaz!

Yox deyib ağlamadım,
Var yığıb saxlamadım.
Bir ömür qapı açdım,
Bir qapı bağlamadım.

Söz var buzdu, söz var köz,
Qoçaqsansa, ona döz.
Yaxşılığı heç görməz,
Üzüqara, yaman göz!

Tərifləyir özünü,
Şərə dikib gözünü.
Mən əkirəm fidanı,
O göyərdir sözünü.

Qanatmayın yaranı,
Söndürməyin çıranı.
Sözdü dava qaldıran,
Gah düzəldən aranı.

Ey könlümün sultanı,
İstə – verim bu canı –
Görməsəm üzün bir gün
Silkələrəm cahanı!

Ariflər ana məni,
Dost-həmdəm sana məni,
Yar istərəm gözümdən
Anlaya-qana məni.

Saçlarıma düşüb dən,
Sanki solmuş güləm mən.
Ağlayana tay oldum,
Qoymur azca güləm mən.

Sər dilini sər bilər,
Nər dilini nər bilər.
Namərd – namərd dilini,
Ər dilini - ər bilər.

Taxtadan maşa olmaz,
Gədadan paşa olmaz.
Əyri yol yolçusuna
Tövbə, nə haşa olmaz!

Bəxtim quşu uçarmı,
Dərd-sər məndən qaçarmı?
Ömrə bahar gəlməsə,
Deyin, çiçək açarmı?

Eldən gəlsin sorağın,
Kəsilməsin qonağın.
Büdrəməsin ay bala,
Heç bir zaman ayağın!

Bəla görməz baş yoxdu,
Hansı gözdə yaş yoxdu?
Yol çoxlu, yolçu çoxlu,
Mənə bir yoldaş yoxdu!

Dərd başını almasın,
Səbr kasan dolmasın.
Heç kimsənin çörəyi
Təknədə tək qalmasın.

Dərd qəlbin deşən ağlar,
Od düşər, kövşən ağlar.
Atdan düşənə nə var,
Adından düşən ağlar.

Bağa bax, üzüm olsun,
Yeməyə üzün olsun.
Qulaq as ağsaqqala,
Deməyə sözün olsun!

Cığırım-izim qalar,
Ocaqda közüm qalar.
Ölüb-itsəm dünyada
Bilin ki, sözüm qalar!

Düşün-daşın dərindən,
Utanma heç tərindən.
Baş-başa versən əgər,
Dağ tərpənər yerindən.

Su yorulmaz axmaqla,
Sən iş tutma axmaqla.
Qəssab olar itlərdən
Öyrənilsə baxmaqla.

Qış qurtarar, yaz olar,
Qız satdığı naz olar.
Çox olar aş yoldaşı,
İş yoldaşı az olar!

Dəvəsi düzə çıxdı,
Günahı dizə çıxdı.
Zər atdı, qoşa gəldi,
Hiyləsi üzə çıxdı.

Hər düyüdən aş olmaz,
Başda duran – baş olmaz.
Xali deyil bu dünya,
Hamı bağrı daş olmaz!

Yar eşqimin bəndidi,
Üzümün rübəndidi,
Aralığı korlamaq
Kor şeytanın fəndidi.

Bəy qardaş, paşa qardaş,
Qar yağdı başa, qardaş.
İpəkdən yumşaq canım
Dönübdü daşa, qardaş!

Tez küsən-barışandı,
Hər işə qarışandı.
Ədəb-ərkan bilməyir,
Şit-duzsuz danışandı.

Dağ başında qar olar,
Bağ-bağçada qar olar.
Sevda dolu baxışda
Atəş olar – naz olar!

Sel canlar alar, gedər,
Torpağı yalar, gedər.
Fələk bizi, nədənsə,
Toruna salar, gedər!

Qərib çəkər gör, nələr,
Ahı-ünü dağ dələr.
Yurd-yuvaya məhəbbət
Dindən-imandan gələr!

Bəxtsizə qada düşər,
Can yanar, oda düşər.
Gen gündə yaddan çıxan
Dar gündə yada düşər.

Bəxti üzə gülən var,
Od-ocağı sönən var.
Gündə şirin pay alan,
Payı qana dönən var.

Qəsdin nə,
Qərəzin nə, qəsdin nə?
Sən dönüb bir yağıya
Taqətimi kəsdin, nə?

Öyünmə göz-qaşınla,
Mal-mülkün, qaş-daşınla,
Varsa ağlın-kamalın,
Fəxr eylə sən başınla.

Hər işin zordan olsun,
Döşəyin qordan olsun.
Arzumdu, namərd, sənin
Yorğanın qardan olsun!

Anamız bir mələkdi,
Solmayan gül-çiçəkdi.
Göydə Allah, Yerdə o,
Bizə hər an gərəkdi.

Çənlidi-dumanlıdı,
Qonaqlı-mehmanlıdı.
Başkeçidin dağları
Şamdüyə, Sarxanlıdı!

Sadə, düşsən odlara,
Abır-həya, ad ara.
Pis gün gəldi-gedərdi,
Ağız açma yadlara!

Gəzdim eşqin bağını,
Çəkdim dərdin dağını.
Əritdilər, qalmadı
Ürəyimin yağını!

Mən dərdi atammadım,
Bazarda satammadım.
Hamılarla dil tapdım,
Dərdimlə tapammadım!

Gördüyüm azar oldu,
Can dərddən bezar oldu.
Bu işıqlı dünyamız
Sadəyə məzar oldu!

Sərsəridi, həm sərdi,
Bilin ki, bu bəşərdi.
Olsaydı göyə dirək
İnsan onu kəsərdi!

Ümidlərə yağdı qar,
Buz bağladı etibar.
Əhdə sadiq yar-yoldaş
İndi çətin tapılar.

Qəmin yoxdu zamanı,
Hər vaxt olur tufanı.
Baxmır qoca-cavana,
Hey ağladır insanı!

Qəm dünyaya çalası,
Əskik olmur bəlası.
Yenilməzdi ay ellər,
Bilin, qəmin qalası!

Mən Səringül Sadəyəm,
Eşqlə dolu badəyəm.
Saf insanlar önündə
İstərəm ki, baş əyəm!

Bilin ki, mən Sadəyəm,
Azadam-asudəyəm,
Lazımsa, Vətən üçün
Ölməyə amadəyəm!

Güldən ayrı,
Gül ayrı, güldan ayrı.
Bülbül fəğan eyləyir
Ağlayır güldən ayrı!

Satan satdı, pullandı,
Alan aldı, allandı.
Ər evdə ac, arvadsa,
Qapılarda yallandı.

Bu bulaq Sarı bulaq,
Suyu dağlar qarı bulaq.
Mən yarla yarımadım,
Sən yarı, qarı, bulaq!

Dağlar yolu,
Sel gələr, bağlar yolu.
Agah olun, bu Sadə
Böyüyə saxlar yolu!

Sözü-sözə bağlaram,
Sözü sözlə ağlaram.
Düşmənin ürəyini
Bir söz ilə dağlaram.

Darda sirdaşın olsun,
Mərdlər qardaşın olsun.
Hara getsən, ay bala,
Xeyir yoldaşın olsun!

Bədirlənmiş Ay gördüm,
Boz-bulanıq çay gördüm.
Dosta tərəf, ay ellər,
Çəkilmiş çox yay gördüm!

Yüngüllərə tay olma,
Bir gərilmiş yay olma.
Özünü tərifləyib,
Ulduz olma, ay olma!

“Elm və təhsil” nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 22.08.2023
Şərti çap vərəqi 5,5. Sifariş № 298
Kağız formatı 60x84 1/32. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4